# Qarabağ təbiətimizin cənnət diyarıdır

## *Bu torpağın yaraları sağaldılır, sərvətlərinə qapı açılır*



**Azərbaycan zəngin təbii müalicə ehtiyatlarına malik ölkə kimi sağlamlığın qorunması, xəstəliklərin qarşısının alınması və müalicəsi sahəsində geniş imkanlara sahibdir. Bu potensialın səmərəli şəkildə reallaşdırılması baxımından Qarabağ və Şərqi Zəngəzur bölgələri xüsusi strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin televiziya kanallarına verdiyi müsahibədə də regionun turizm potensialı yüksək qiymətləndirilib: “Qarabağ və Zəngəzura gəldikdə, bura cənnətdir. Həqiqətən təbii cənnətdir. Bir sözlə, orada turizmin inkişafı prioritetlərdən biridir... Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq”.**

Dövlətimizin başçısının bu bölgələri “təbii cənnət” kimi xarakterizə etməsi təsadüfi deyil. Zəngin və toxunulmamış təbiət, əlverişli iqlim, müalicəvi ehtiyatlar və sürətlə formalaşan müasir infrastruktur burada yeni turizm modelinin əsasını qoyur. Bu model həm iqtisadi, həm sosial, həm də mədəni baxımdan uzunmüddətli inkişafı hədəfləyir. Bu, bir daha göstərir ki, Qarabağ və Şərqi Zəngəzur təkcə Azərbaycanın tarixi torpaqları deyil, eyni zamanda, ölkənin gələcək inkişaf strategiyasında mühüm yer tutur. Bu, həm iqtisadi, həm sosial, həm də mədəni baxımdan uzunmüddətli inkişafı hədəfləyir.

Müsahibədə xüsusi vurğulanan mühüm məqamlardan biri də infrastrukturun qurulmasıdır. Dağlıq və çətin relyef şəraitində elektrik xətlərinin çəkilməsi, körpülərin, dördzolaqlı avtomobil yollarının və uzun tunellərin inşası təkcə mühəndislik uğuru deyil, eyni zamanda, turizmin gələcək inkişafı üçün möhkəm təməldir. Yeni dəmir yolları və magistral avtomobil xətləri Qarabağı ölkənin digər regionları ilə etibarlı və təhlükəsiz şəkildə birləşdirəcək.

Bundan başqa, qeyd olunur ki, artıq Şuşa və Laçında mehmanxanalar fəaliyyət göstərir, Zəngilanda yeni mehmanxana tikilir, Kəlbəcərin İstisu ərazisində müasir turizm obyektinin açılışı gözlənilir. Yaxın perspektivdə Xankəndidə də mehmanxananın istifadəyə verilməsi mümkündür. Bu faktlar göstərir ki, bölgədə turizmin inkişafı təsadüfi deyil, dövlət səviyyəsində planlaşdırılmış və ardıcıl şəkildə həyata keçirilən siyasətdir.

Yaranan yeni reallıq isə Qarabağ və Şərqi Zəngəzuru beynəlxalq münasibətlər, biznes və səyahət baxımından da cəlbedici məkana çevirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, azad edilmiş ərazilər artıq beynəlxalq turizm bazarı üçün açıqdır və burada istirahət turizmi ilə yanaşı, biznes və sağlamlıq turizmi üçün də geniş perspektivlər mövcuddur. Bu, Azərbaycanın beynəlxalq arenada tanıdılması, müsbət imicinin möhkəmləndirilməsi və mədəni diplomatiyanın gücləndirilməsi baxımından önəmlidir.

### *Ekspert rəyi*



**Qəhrəman YUSUPOV, Qarabağ Universitetinin müəllimi**

Azərbaycan hökuməti Qarabağ regionuna xüsusi turizm zonası statusu verib. Bu status regionda turizmin inkişafı məqsədilə xarici investisiyaların cəlb olunmasını nəzərdə tutur. 2022–2026-cı illəri əhatə edən Dövlət Turizm İnkişaf Proqramı çərçivəsində Qarabağda genişmiqyaslı turizm layihələrinin icrası planlaşdırılır. Strategiyada bu sahədə infrastrukturun inkişafı, marketinq fəaliyyətlərinin gücləndirilməsi və regional əməkdaşlığın genişləndirilməsi xüsusi vurğulanır.

Regionun ərazisində 120-yə yaxın müalicəvi mineral su mənbəyi mövcuddur. Sovet dövründə Kəlbəcər, Şuşa və Laçında sanatoriyalar və istirahət mərkəzləri fəaliyyət göstərirdi. Hazırda Kəlbəcərdə inşa edilən “İstisu” sanatoriyasında ildə təxminən 50 min pasiyentin qəbul edilməsi nəzərdə tutulur. Qarabağın mineral sularının göstəriciləri İsveçrə, Gürcüstan, Çexiyanın Karlovı Varı və Rusiyanın Mineralnıye Vodı kurortları ilə müqayisə oluna biləcək səviyyədədir.

Regionun əlverişli iqlimi və minerallarla zəngin suları onun yüksək kurort potensialına malik olduğunu sübut edir. Xankəndidən Şuşaya doğru ərazilərdə Şirlan, Çərəktar, Turşsu və digər mineral bulaqlar yerləşir.

Qarabağ Universitetinin tələbələrinə regionun mineral bulaqları və müalicəvi bitkiləri barədə məlumatların toplanması ilə bağlı tapşırıqlar verilir. Tələbələr bu bilikləri Qarabağa gələn qonaqlarla bölüşərək regionun həm mədəni-tarixi, həm də müalicəvi imkanlarının tanıdılmasına töhfə verirlər.

Bölgədə 600-dən çox müalicəvi bitki növünə rast gəlinir. Bu bitkilər əsasında müalicə mərkəzlərinin yaradılması turist axınının artmasına ciddi təsir göstərə bilər. Kənd Yaşıl Turizminin İnkişafına Dəstək İctimai Birliyi tərəfindən keçirilən təlimlərdə kənd sakinlərinə müalicəvi bitkilərin turistlərə faydası barədə məlumat verilir.

Nəticə etibarilə, sağlamlıq turizmi insanların sağlamlığının qorunması və bərpasına yönəlmiş mühüm turizm növüdür və Qarabağ və Şərqi Zəngəzur bu sahədə Azərbaycanın ən perspektivli regionlarından biridir.

**Bu barədə XQ-yə danışan Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent Kamran Abdullayev** bildirdi ki, bu gün Qarabağda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri regionun simasını köklü şəkildə dəyişdirərək onu bütövlükdə sağlamlıq və istirahət məkanına çevirir: “Regionun uzun illər formalaşmış kurort ənənələri müasir yanaşmalar və yeni texnologiyalar əsasında bərpa olunur, təbii müalicə ehtiyatları qorunmaqla səmərəli və məqsədyönlü şəkildə istifadəyə verilir. Burada yaradılan müasir infrastruktur, bərpa olunan tarixi-mədəni irs və təbii sərvətlərin səmərəli istifadəsi regionu təkcə iqtisadi baxımdan deyil, həm də sosial və siyasi aspektlərdən ölkənin inkişaf xəritəsində ön mövqeyə çıxarır. Bu yanaşma Azərbaycanın postmünaqişə dövründə dayanıqlı inkişaf, regional sabitlik və beynəlxalq əməkdaşlıq istiqamətində həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsi kimi çıxış edir.

Onu da qeyd edək ki, bu proses təkcə fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır, eyni zamanda, Qarabağın təbii-ekoloji balansının saxlanılmasını və insanla təbiət arasında harmoniyanın bərpasını hədəfləyir. Nəticədə Qarabağ insanla təbiətin vəhdətinin nadir nümunəsi kimi formalaşır. Burada şəfa yalnız suda, palçıqda və havada deyil, bütövlükdə torpağın ruhunda cəmlənib. Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlər də bu reallığı aydın şəkildə təsdiqləyir: Qarabağ artıq təkcə bərpa olunan ərazi deyil, eyni zamanda Azərbaycanın gələcək sağlamlıq və turizm mərkəzi kimi strateji mövqeyini möhkəmləndirən mühüm inkişaf məkanına çevrilir”.

***P.ƏFƏNDİ***
***XQ***

Xalq qəzeti.- 2026.- 8 yanvar (№ 03).- S.4.